Hacı Hacıyev – 100

Tanınmış jurnalist, nüfuzlu media xadimi

Bakı Dövlət Universiteti (BDU), Azərbaycan Mətbuat Şurası və Azərbaycan Jurnalistlər Birliyinin keçirdikləri birgə mərasim tərcüməçi, publisist, Əməkdar jurnalist Hacı Hacıyevin 100 illik yubileyinə həsr olunub.

Mətbuat Şurasının sədri Rəşad Məcid ölkəmizin media tarixində xüsusi xidmətləri olan Hacı Hacıyevin milli mətbuat ənənələrinə sadiqlik nümunəsi olduğunu bildirib. O qeyd edib ki, Hacı müəllimin, Azərbaycan Jurnalistlər İttifaqı İdarə Heyətinin katibi, Azərbaycan Jurnalistlər Birliyinin sədri, 2006-cı ildən isə qurumun fəxri sədri vəzifələrində çalışıb. Onun yaradıcılığında bədii tərcümə və publisistika xüsusi yer tutub. "Həsən bəy Zərdabi mükafatı" da məhz Hacı Hacıyevin təşəbbüsü ilə təsis edilib. Prinsipiallığı, qətiyyəti və insanpərvərliyi ilə iz qoyan Hacı Hacıyevin xatirəsi hər zaman əziz tutulur.

Azərbaycan Jurnalistlər Birliyinin sədri Elçin Şıxlı milli mətbuatın 150 illik yubileyi ərəfəsində medianın inkişafı və ənənələrinin qorunması istiqamətində böyük işlər görmüş Hacı Hacıyevin xidmətlərini qeyd etməyin mənəvi borc olduğunu deyib. O bildirib ki, Hacı müəllim hələ sovet dövründə Azərbaycan Jurnalistlər Birliyində millilik məsələsini gündəmə gətirmişdi. Məhz onun təklifi ilə ölkəmizdə Mətbuat Günü Həsən bəy Zərdabinin "Əkinçi" qəzetinin işıq üzü gördüyü günə uyğun olaraq 22 iyula keçirilib. Milli mətbuatımız ümummilli lider Heydər Əliyevin hakimiyyəti dövründə dövlət qayğısı ilə əhatə olundu, daha da inkişaf etdi.

BDU-nun jurnalistika fakültəsinin dekanı, dosent Vüqar Əliyev bildirib ki, ölkəmizdəki jurnalist təşkilatlarının fəaliyyəti tədris prosesində tələbələrə öyrədilir. Hacı Hacıyevin uzun illər rəhbərlik etdiyi Azərbaycan Jurnalistlər Birliyinin fəaliyyəti haqqında da "Jurnalistikaya giriş" fənnində geniş məlumat verilir.

Sonra çıxış edən BDU-nun milli mətbuat tarixi kafedrasının müdiri, professor Cahangir Məmmədli, multimedia və elektron kommunikasiya kafedrasının müdiri, professor Qulu Məhərrəmli, ərəb filologiyası kafedrasının müdiri, dosent Vüqar Qaradağlı, Azərbaycan Jurnalistlər Birliyinin sədr müavini Şahin Babayev, beynəlxalq jurnalistika və informasiya siyasəti kafedrasının professoru Sabir Məmmədli və Hacı Hacıyevin qardaşı oğlu Şahin Hacıyev xatirələrini bölüşüblər.

XQ